# Yaddaqalan obrazlar yaradan aktyor

**Dünən Azərbaycanın Xalq artisti, mərhum Əliabbas Qədirovun doğum günü idi. Görkəmli aktyor yaddaqalan, maraqlı, rəngarəng obrazlar qalereyası yaradaraq böyük tamaşaçı rəğbəti qazanmışdır. Sənətkarın anadan olmasının 78-ci ildönümüdür.**



Xalq artisti 1946-cı il fevralın 13-də Bakıda dünyaya gəlib. O, 1965-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun Dram və kino aktyorluğu fakültəsinə qəbul edilib. Sənət müəllimi, ixtisas kurs rəhbəri Xalq artisti, professor Mehdi Məmmədov, səhnə danışığı müəllimi Əməkdar artist, qiraət ustası Müxlis Cənizadə olub.

Tələbəlik illərində institutun tədris teatrının ştatlı aktyoru kimi burada Cəfər Cabbarlının "Aydın", Hüseyn Cavidin "Azər", Afanasi Salinskinin "Təbilçi qız" tamaşalarında maraqlı rollar yaradıb. Elə buna görə də Əliabbas Qədirov son kursda oxuyanda Mehdi Məmmədov onu Azərbaycan Milli Dram Teatrında quruluş verdiyi Hüseyn Cavidin "Xəyyam" faciəsində Yusif roluna dəvət edib. O, ilk addımından teatr ictimaiyyətinin nəzər-diqqətində olub.

Əliabbas Qədirov 1970-ci ildən ömrünün sonunadək Milli Dram Teatrında çalışıb. Onun "Xəyyam", "Aydın", "Sevil", "Oqtay Eloğlu", "Hacı Qara", "Xırs quldurbasan", "Vaqif", "Mahnı dağlarda qaldı", "Sevgililərin cəhənnəmdə vüsalı", "Tənha iydə ağacı", "Torpağa sancılan qılınc" və başqa səhnə əsərlərində böyük ustalıqla yaratdığı obrazlar milli teatrımızın parlaq səhifələrini təşkil edir. Aktyor 2001-ci ildə teatrın bədii rəhbəri və direktoru vəzifəsinə təyin olunub.

Ə.Qədirov "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi 62 bədii və tammetrajlı filmdə bir-birindən maraqlı personajlar yaradıb.

Tanınmış aktyor 2006-cı il martın 8-də 60 yaşında leykemiya xəstəliyindən dünyasını dəyişib.

Azərbaycan.- 2024.- 14 fevral, № 33.- S.11.